## Yazı

Gecə saat 3 ya da 4 idi. Dəqiq xatırlamıram, bircə onu anladım ki, səs-küyə oyanmışam. Misirin sillabik yazılarından bəhs edən kitab oxuyub yatdığımdan, hətta elə bildim evə hücum edən elə Ramzesin özüdür. Gecə yatanda qohumlardan birinə iynə batmışdı. Arvadlar bir nəfər kimi səfərbər olub döşəyi sökürdülər. Bunu niyə etdiklərini anlamış deyildim, ta ki cadu sözünü eşidənə kimi. Hərdən də bütün gözlər oğrun-oğrun təzə gəlinə zillənirdi. O isə boynunu büküb bu qarmaşanı izləyirdi. Elə bu əsnada daha bir bağırtı qopdu. Arvadlardan kimsə yunun içindən heroqriflərlə yazılmış kağız parçası tapmışdı. Bax indi ağız deyəni qulaq eşitmirdi!

Hərə öz biliyini nümayiş etdirməyə başladı.

Biri dedi: “Bu, alban yazısıdı”. Birisi də dedi ki, bu, kirilcə yazılıb. Başqa birisi isə dedi ki, əgər bu cadudursa, mütləq ərəb əlifbası ilə yazılmalıdır. Sonuncuya cavab yerindəcə verildi:

- Ərəb əlifbasıdırsa, bəs onda hərəkələri hanı?

Bütün bunlara yalnız bir nəfər gülə-gülə tamaşa edirdi. O da balaca Ürfan idi. Axı kağız parçalarına ağlına gələni cızıb, avtoqrafını qoyub, ağıla gəlməyən yerlərdə gizlətmək onun köhnə adəti idi.